**UOT 37.0**

***Ülviyyə Salam qızı Aslanova***
*Bakı şəhəri, Sabunçu rayonu, 170 №-li məktəbin direktoru*
*https//orcid.orq.0000-0001-6495-3802*

# MÜƏLLİMİN PEDAQOJİ ETİKASI

***Ульвия Салам гызы Асланова***
*директор школы №170 Сабунчинского района города Баку*

# ПЕДАГОГИЧЕСКАЯ ЭТИКА УЧИТЕЛЯ

***Ulviya Salam Aslanova***
*director of school No. 170 of Sabunchi district of Baku city*

# TEACHER'S PEDAGOGICAL ETHICS

**Xülasə.** Müəllimin tədris etdiyi fənn, hər gün ünsiyyət və münasibətdə olduğu şagirdlər, onlarla apardığı təlim tərbiyə işləri, yetişdirmələrinin təhsil nəticələrinin qiymətləndirilməsi, şagirdlərin stimullaşdırılması, ətraf aləmə bilik,, elm mədəniyyət yayması, öyrətmək, məlumatlandırmaq, nümunə göstərmək müəllimin gündəlik işi və həyat tərzidir. Hər gün müəllim tədrisin müxtəlif tərəflərini dərk etməli, təhsil sisteminin digər iştirakçıları ilə anlaşma əldə etməli, pedaqoji peşənin incəliklərini, səciyyəvi xüsusiyyətlərini nəzərə almalı, özünün daim pedaqoji səriştəlilik və peşəkarlıq səviyyəsini yüksəltməlidir.

Təhsilin inkişafını şərtləndirən əsas amil məhz müəllimin pedaqoji fəaliyyətidir və uğurlu nəticə də bu fəaliyyətin düzgün, etik qaydalara uyğun qurulmasından asılıdır. Bütün bu uğurların əsas təməlində pedaqoji etika durur. Pedaqoji etikaya sahib olmadan heç bir uğur qazanmaq mümkün deyildir. Etik qaydalar müasir dövrümüzdə hər bir peşə sahibinin mütləq yerinə yetirəcəyi qaydalardır. Etika anlayışlar, xüsusilə təhsildə pedaqoji etik qaydalar, düzgün davranış normaları təhsilimizin ayrılmaz tərkib hissəsidir.

***Açar sözlər:*** *Müəllim, etika, əxlaq, ünsiyyət, münasibət.*

**Резюме.** Преподаваемый учителем предмет, учащиеся, с которыми он общается и взаимодействует, его повседневная работа являются образом жизни учителя. Учитель должен разбираться в различных аспектах преподавания, добиваться взаимопонимания с другими участниками системы образования, учитывать тонкости и особенности педагогической профессии, постоянно повышать свое педагогическое мастерство и профессионализм. Главным фактором, определяющим развитие образования, является педагогическая деятельность педагога, успешный результат которой зависит от правильной, этичной организации своей деятельности. В основе всех этих успехов лежит педагогическая этика. Без педагогической этики невозможно добиться каких-либо успехов. Этические правила – это правила, которым должен следовать каждый учитель. Этические понятия, особенно педагогические этика являются неотъемлемой частью нашего образования.

***Ключевые слова***: *учитель, этика, нравственность, общение, отношение*

**Summary.** The subject taught by the teacher, the students with whom he communicates and interacts his daily work and the teacher's lifestyle. The teacher must understand various aspects of teaching, achieve mutual understanding with other participants in the education system, take into account the subtleties and peculiarities of the teaching profession, constantly improve their pedagogical skills and professionalism. The main factor determining the development of education is the pedagogical activity of the teacher, the successful result of which depends on the correct, ethical organization of their activities. At the heart of all these successes is pedagogical ethics. Without pedagogical ethics it is impossible to achieve any success. Ethical rules are rules that every teacher must follow. Ethical concepts, especially pedagogical ethics, are an integral part of our education.

***Keywords:*** *Teacher, ethics, morals, communication, attitude.*

Müəllimin tədris etdiyi fənn, hər gün ünsiyyət və münasibətdə olduğu şagirdlər, onlarla apardığı təlim tərbiyə işləri, yetişdirmələrinin təhsil nəticələrinin qiymətləndirilməsi, şagirdlərin stimullaşdırılması, ətraf aləmə bilik, elm, mədəniyyət yayması, öyrətmək, məlumatlandırmaq, nümunə göstərmək müəllimin gündəlik işi və həyat tərzidir. Hər gün müəllim tədrisin müxtəlif tərəflərini dərk etməli, təhsil sisteminin digər iştirakçıları ilə anlaşma əldə etməli, pedaqoji peşənin incəliklərini, səciyyəvi xüsusiyyətlərini nəzərə almalı, özünün daim pedaqoji səriştəlilik və peşəkarlıq səviyyəsini yüksəltməlidir.

Təhsilin inkişafını şərtləndirən əsas amil məhz müəllimin pedaqoji fəaliyyətidir və uğurlu nəticə də bu fəaliyyətin düzgün, etik qaydalara uyğun qurulmasından asılıdır. Bütün bu uğurların əsas təməlində pedaqoji etika durur. Pedaqoji etikaya sahib olmadan heç bir uğur qazanmaq mümkün deyildir. Etik qaydalar müasir dövrümüzdə hər bir peşə sahibinin mütləq yerinə yetirəcəyi qaydalardır. Etik anlayışlar, xüsusilə təhsildə pedaqoji etik qaydalar, düzgün davranış normaları təhsilimizin ayrılmaz tərkib hissəsidir.

Bu gün müstəqil Azərbaycanda təhsilin yenidən əsaslı şəkildə qurulması, təhsildə keçirilən islahatların qarşıya qoyduğu vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsi müəllimin metodiki, elmi-pedaqoji hazırlığından, onun işə fəal və yaradıcı münasibətindən və işinə ustalıqla yanaşmasından çox asılıdır. Hər bir müəllim elmli, məşğul olduğu sahənin bilicisi, eyni zamanda əxlaqi cəhətdən inkişaf etmiş, xüsusi yaradıcılıq qabiliyyətinə malik olmalıdır. Müəllim tədris etdiyi sahəni, fənni mükəmməl bilməli, elmə, tədris etdiyi fənninə yaradıcı yanaşmalı, pedaqoji, psixoloji biliklərə sahib olmalı, ixtisasını dərindən bilməli və yüksək səriştə və peşəkarlığa, pedaqoji etikaya malik olmalıdır.

Müəllimin verdiyi təhsil cəmiyyətin tərəqqisinə qüvvətli təsir göstərir, millətin inkişafına güclü təsir edir. Necə ki dahi rəhbərimiz, Ulu Öndər Heydər Əliyev – "Təhsil millətin gələcəyidir" ..." Mən, yer üzündə müəllim adından yüksək bir ad tanımıram" – demişdir.

Müəllimin həyatı daim təhsillə, oxuyub, öyrətməklə, insan şüurunu formalaşdırmaqla, tərbiyə və təhsil verməklə bağlı olub layiqli vətəndaşlar, hərtərəfli inkişaf etmiş şəxsiyyətlər yetişdirməkdir.

Etik qaydalar müasir dövrümüzdə hər bir peşə sahibinin mütləq yerinə yetirəcəyi qaydalardır. Etik anlayışlar, xüsusilə təhsildə pedaqoji etik qaydalar, düzgün davranış normaları ildən ilə daha da aktual əhəmiyyət kəsb edir.

Etika qədim yunan dilində "şəxsin əxlaqi baxımdan xasiyyət və xarakteri" mənasını ifadə edən "ethos" kəlməsindən törəmişdir. Etikanın əsas mövzusu əxlaq anlayışıdır.

Müəllim qarşına qoyduğu vəzifələri layiqincə yerinə yetirməsi üçün onun pedaqoji normalara əməl etməsi, təhsil alanlarla, valideynlərlə, həmkarları ilə, bütün insanlarla yüksək ünsiyyət mədəniyyətinə, düzgün ünsiyyət və rəftara malik olmalıdır. Təhsil haqqında Azərbaycan Respublikasının Təhsil haqqında Qanunun III fəslində, (1, 40), "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" (2) haqqında ölkə prezidenti, cənab İlham Əliyevin sərəncamında müəllimin səriştə və peşəkarlığına, əxlaqi görüşlərinə və etik davranış qaydalarına xüsusi diqqət və əhəmiyyət verilmişdir.

Müasir dövrdə cəmiyyətimizdə etika, etik davranış, etik qanunauyğunluq anlayışları ilə demək olar ki, bütün sahələrdə qarşılaşırıq. Təhsil sahəsində islahatların keçirilməsi pedaqoji etikaya, pedaqoji rəftara, pedaqoji ünsiyyət və münasibətlərə, davranış normalarına diqqəti daha da artırılmış və Təhsil Nazirliyi bu barədə xüsusi əmr də imzalamışdır. Azərbaycan Respublikası Təhsil Nazirliyinin 16 may 2014-cü il tarixli əmri ilə təsdiq edilmiş "Müəllimlərin etik davranış qaydaları"nda deyilir: "Müəllimlərin etik davranış qaydaları təhsilin bütün səviyyələrində peşə fəaliyyəti zamanı təhsilverənlərin ümumi davranışını və təhsil prosesi iştirakçıları ilə qarşılıqlı münasibətlərini tənzimləyən normalar məcmusundan ibarətdir" (3).

Təhsil Nazirliyinin bu dəyərli, mühüm əmri təhsil işçilərini, pedaqoji elmin tədqiqatçılarını bu istiqamətdə daha da fəallaşdırmış və pedaqoji prosesdə daha uyğun hərəkət və davranışlara diqqət artırılmış və bu barədə dəyərli əsərlər yazılmışdır (4; 5).

Son dövrlərdə pedaqoji fəaliyyət sahəsində etik qaydalar, pedaqoji etikaya əməl olunması, pedaqoji etik qanunauyğunluqlar daha dərindən araşdırılır. Xüsusilə prof. Akif Abbasovun (6), prof. Ləzifə Qasımovanın (7), prof. Rüfət Hüseynzadənin(8) yeni nəşr olunan "Pedaqogi-

ka"dan dərslik və dərs vəsaitlərində çox haqlı və yerində olaraq müəllim şəxsiyyəti, müəllimin ünsiyyət və mədəniyyəti, müəllim şagird – münasibətləri, pedaqoji etika haqqında çox dəyərli məlumatlar verilmişdir ki, bütün bunlar da nəinki ali məktəb müəllim və tələbələri üçün, həmçinin ümumtəhsil məktəblərinin məktəb rəhbərləri və müəllimləri üçün çox əhəmiyyətli və dəyərlidir.

Tədqiqatlar göstərir ki, hər bir müəllim etik qaydalara nə qədər dərindən bələd olsa, təlim fəaliyyəti də bir o qədər keyfiyyətli olar, təhsilin keyfiyyəti daha da yüksələr. Etika hər bir insanın ətraf aləmə ünsiyyət və münasibətindən yaranır. Bu gün isə etikalı, mədəni olmaq, gözəl davranışa sahib olmaq hər bir müəllimin həm vətəndaşlıq borcu, həm də peşə tələbidir.

Müəllimin nüfuzu hazırda məktəbi ən vacib problemlərindən biridir. Bizim fikrimizcə, ibtidai və orta sinif şagirdləri bu nüfuzu hazır şəkildə qəbul etmir, onu qazanmaq lazımdır. Təcrübə göstərir ki, müəllim nüfuzu olmadan mənəvi tərbiyə problemləri də həll edilməmiş qalacaqdır. Əlbəttə, müəllim nüfuzu, hər şeydən əvvəl, uşaqlara məhəbbət üzərində qurulur və öz-özündə tərbiyəedici xarakter daşıyır. Şagirdlərini sevən həqiqi tərbiyəçi onları həyata hazırlamalı, cəmiyyətimizin idealları ilə səsləşən məqsədlərinə çatmağa çalışmağı öyrətməlidir.

Uşaqları sevən müəllim onlara həssas olmağı, gözəlliyi sevməyi və duymağı, xeyirxahlığı öyrətməlidir. Özü də söhbət yalnız xeyirxahlığın və gözəlliyin nə olduğunu izah etməkdən getmir, məsələ şagirdin xeyirxahlığı, həyatda ən vacib xüsusiyyət olduğunu dərk etməsində və həqiqi insanlığın bunu həyata tətbiq etməkdə olduğunu başa düşməsindədir. Özü də bu münasibətin ilk nümunəsi müəllim özü olmalıdır.

Pedaqoji etikanı, hər şeydən əvvəl müəllimlərin mənəvi istiqamətdə hazırlığı maraqlandırır. Çünki, fizika, ədəbiyyat və ya kimya müəllimləri dərs deyərkən fənni necə izah etməsi onun ixtisas dərəcəsindən, yaradıcılığından, biliyindən asılıdırsa, uşaqları necə tərbiyə etməsi bütünlükdə siyasi idealları, hətta şəxsi həyatından da asılıdır. Təbiidir ki, belə olduqda normativ qaydalar etik davranış qaydaları daha ciddi xarakter alır və diferensiallaşdırılmış olur.

Müəllim, hər şeydən əvvəl, mənəvi cəhətdən yetkin, əxlaqca saf, bilikli, dünyagörüşlü insan olmalıdır.

Pedaqoji etikanı ilk növbədə mənəvi münasibətlər, o cümlədən tərbiyə olunana konkret şəxsiyyət münasibəti bəslənməsi, ona məhəbbət və hörmət bəslənməsi maraqlandırır. Bu münasibətlər məhz daxili aləmlə həqiqi tanışlığın əsasını təşkil etməlidir.

**Problemin aktuallığı.** Deyə bilərik ki, etika müəllimlik fəaliyyətinin ən vacib atributudur. Nitq mədəniyyəti, ünsiyyət mədəniyyəti müəllim etikasının ayrılmaz tərkib hissəsidir. Müəllimin pedaqoji etikasında Nizami fəlsəfəsində nə dərəcədə aktuallığını aydın görmək olur: "Qüvvət elmdədir, başqa cür heç kəs heç kəsə üstünlük eyləyə bilməz", "Bir inci saflığı varsa da suda, artıq içiləndə dərd verir o da", "Kamil bir palançı olsa da insan, yaxşıdır yarımçıq papaqçılıqdan." Budur pedaqoji etikanın əsl mənbəyi. Müəllimin pedaqoji etikası – onun pedaqoji ustalığının, ünsiyyət mədəniyyətinin əsasını təşkil edir.

**Problemin elmi əhəmiyyəti.** Pedaqoji prosesdə əxlaqi münasibətlərin quruluşu mürəkkəb çoxplanlı və həmçinin ümumi və səciyyəvidir. Bura, hər şeydən əvvəl, uşaqlar, müəllim-cəmiyyət münasibətləri, sonra isə onlara təsir edən bütün qalan münasibətlər, yəni valideynlər-uşaqlar-müəllim, müəllim-pedaqoji kollektiv, müəllim-cəmiyyət və başqaları daxildir ki, bu münasibətlər haqqında ayrıca elmi işlər, tədqiqatlar aparmaq olar. Biz bu məsələlərə ümumi elmi-nəzəri baxış etmişik.

**Problemin praktik əhəmiyyəti.** Məqalədə oxuculara təqdim edilən materiallardan istər ali məktəb və istərsə də ümumtəhsil məktəblərinin müəllimləri praktik olaraq istifadə edə bilər və bundan xeyli faydalana bilərlər.

**Ədəbiyyat:**


1. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. – Bakı: Hüquq ədəbiyyatı nəşriyyatı, – 2009, – 80 s.
2. Azərbaycan Respublikasının təhsilin inkişafı üzrə Dövlət Strategiyası. – Bakı, – 2013.
3. Azərbaycan Respublikası Təhsil nazirinin "Müəllimlərin etik davranış qaydaları" haqqında 16 may 2014-cü il tarixli 600 nömrəli əmri. "Azərbaycan müəllimi" qəz., 2014, 23 may
4. İlyasov, M.İ. Müəllimin peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri. Monoqrafiya. – Bakı: Elm və təhsil, – 2018, – 208 s.
5. İlyasov, M.İ. Müəllimin pedaqoji ustalığı: Dərs vəsaiti. – Bakı: Elm və təhsil, – 2013, – 216 s.

6. Abbasov, A.N. Pedaqogika: Müntəxəbat. Ali tədris müəssisələri üçün dərs vəsaiti / A.N. Abbasov, R.M. Məmmədzadə, L.A. Məmmədli. – Bakı: Mütərcim, – 2021, – 608 s.
7. Qasımova, L.N. Pedaqogika: Dərslik. – Bakı: Ekoprint, – 2021, – 612 s.
8. Hüseynzadə, R.L. Pedaqogika: Dərslik. – Bakı: Mütərcim, – 2021, – 488 s.

**E-mail:** ulviya-aslan1972@mail.ru
**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* **L.N. Qasımova**
*ped.ü.elm.dok., prof.* **R.L. Hüseynzadə**
**Redaksiyaya daxil olub:** 16.04.2022.